UOT 94 (479.25)

# XVII ƏSRİN 80-Cİ İLLƏRİNDƏ SƏFƏVİ DÖVLƏTİNİN ŞƏHƏRLƏRİNİN SOSİAL STRUKTUR MƏSƏLƏLƏRİ

**Ş.N.İSMAYILOV**
***Bakı Dövlət Universiteti***
***sahismayil_ismayilov@mail.ru***

*XVII əsrin ortalarında həyata keçirdiyi bərpa və quruculuq işləri sayəsində bir çox şəhərlər ticarət-sənətkarlıq mərkəzlərinə çevrilmiş, onların ictimai həyatlarında da ciddi dəyişikliklər baş vermişdir. Sansonun, Engelbert Kempferin əsərlərində və dövrün bir çox mənbələrində Səfəvi məmləkətinin şəhər əhalisinin məşğuliyyəti və şəhər əhalisi barədə məlumatlar verilir. Ancaq ölkə və şəhər əhalisinin sosial tərkibi, sayı məsələsinə ötəri toxunulur.*

**Açar sözlər:** Səfəvi, Təbriz, Darğa

Səfəvi dövlətində şəhər əhalisinin sosial tərkibi material qıtlığı ilə əlaqədar olaraq kifayət qədər öyrənilməmişdir. Belə ki, orta əsr müəllifləri əsərlərində əhalinin sosial tərkibinə lazımi əhəmiyyət verməmiş, habelə dövrün dövlət məmurları da bu istiqamətdə statistik qeydləri aparmamışdılar ki, bu da məsələnin həlli üçün böyük çətinlik törədir. Bununla belə, ilk mənbələrdə və tarixi ədəbiyyatda təsadüf etdiyimiz son dərəcə məhdud materiallar əsasında Səfəvi dövlətində şəhərlərin əhalisinin sosial tərkibini aşağıdakı kimi təqdim etmək olar: dörd təbəqədən ibarət olan ali zümrə-hərbi əyanlar, mülki bürokratiya, ali ruhanilər, iri və kiçik torpaq sahibləri; ticarətlə məşğul olan iri, orta və kiçik tacirlər; şəhərlərin başlıca istehsalçıları olan sənətkarlar; şəhərətrafı torpaqları becərənlər və heyvandarlıqla məşğul olanlar; günəmuzd fəhlələr, qulluqçular, qullar və hər cür müflis ünsürlər (1, 170-171).

S.Aşurbəyliyə görə şəhər əhalisi sosial-iqtisadi vəziyyətinə görə, 1) şəhərin dünyəvi feodal zadəganları, 2) ruhanilər, 3) tacirlər, 4) sənətkarlar, 5) şəhər əhalisinin digər təbəqələri-müflisləşmiş kəndlilər, günəmuzd fəhlələr, qullardan ibarət (2, 252) beş kateqoriyaya bölünmüşdür. Bizcə bu bölgü orta əsr Səfəvi dövlətinin şəhərlərində sosial münasibətləri daha dolğun və tarixi reallığa uyğun əhatə edir.

Şəhərlərə əyanlar başçılıq edir və Səfəvilər imperiyasının sərhəd əyalətlərində isə hakimiyyət hərbi əyan təbəqəsinə mənsub idi. Şəhərdə bütün hakimiyyət iri torpaq sahibi olan bəylərbəylərin əlində cəmləşmişdi (1, 171). Hər bir kiçik şəhərdə hakim, aristokratiya təbəqəsindən əlavə, xalq içərisində böyük dini və siyasi təsir gücünə malik olan ruhani təbəqəsi də vardı. Onların ixtiyarında bütöv kəndlər, su mənbələri, suvarma şəbəkəsi, qəyyum hüququ ilə külli miqdarda vəqf torpaqları vardı (1, 171).

Ali zümrə içərisində say hesabı ilə yerli əyanlar üstünlük təşkil edirdilər. Bürokratiya da bəzən ölkənin siyasi həyatında nəzərə çarpan rol oynayırdı. Şəhərlərin ictimai həyatında fəal rola malik olan bu zümrəni İsgəndər bəy Münşi dəfələrlə anır və onları "Təbrizin sahibləri", "Bakının sahibləri" adlandırır (3, 183, 216, 251, 315, 550; 1, 171).

XVII əsrdə Səfəvi dövlətinin şəhərlərində tacirlər öz əhəmiyyətinə görə ikinci yeri tuturdular. XVII əsrin ortalarında həm daxili, həm də tranzit ticarətin inkişaf etdiyi şəraitdə şəhərlərdə ticarət kapitalının rolu artırdı. Feodal ara müharibələrinə son qoymaq, karvan yollarının təhlükəsizliyini təmin etmək və qonşu dövlətlərlə dostluq əlaqələri saxlamaq bütün sosial təbəqələr üçün maraqlı idi. Tacirlər həmişə hakimiyyətin mərkəzləşməsinə və dövlətin mövqeyinin güclənməsinə çalışırdılar. Səfəvi sarayı da, öz növbəsində, ticarəti himayə edir və tez-tez Şah özü onun təşkilatçısı rolunda çıxış edir, bəzən isə onun əlverişli sahələrini öz əlinə alırdı. Ona görə də rəsmi mənbələr hərbi əsilzadələrin ticarət nümayəndələrinə cəza vermələri barədə olan fikrə son dərəcə mənfi münasibət bəsləyirlər (1, 171, 172).

XVII əsrdə Səfəvi dövlətinin böyük şəhərlərinin simasını sənətkarlıq və sənətkarlar müəyyənləşdirirdilər. Hər bir şəhər, hər şeydən əvvəl öz sənətkarlıq məmulatı ilə tanınırdı. Böyük şəhərlərdə sənətkarlar saylarına görə əhalinin bütün təbəqəsi içərisində üstünlük təşkil edirdilər. Şəhər sənətkarlarından alınan vergi hesabına şah xəzinəsinin əsas gəliri müəyyən edilirdi (1, 172).

Şəhər əhalisinin dördüncü qrupunu əkinçilər təşkil edirdilər. Onlar şəhər əhalisinin ərzaqla təmin edilməsində mühüm rol oynayırdılar. Belə vəziyyət ilk iri ictimai əmək bölgüsü olan maldarlığın əkinçilikdən, şəhərin kənddən ayrılmasını şərtləndirən amil kimi kifayət deyildi. Beşinci qrupa günəmuzd və ya mövsümi işləyən müflisləşmiş kəndlilər, fəhlələr daxil idi. Bunların arasında müəyyən peşəsi olmayan əyan xidmətçiləri, kölələr də vardı (1, 172; 2, 252).

E.Kempfer və Sansonun əsərləri şəhərlərin sosial-iqtisadi tarixini öyrənmək, Səfəvi dövlətinin iqtisadi həyatında onların rolunu dəqiqləşdirmək və tamamlamaq baxımından müstəsna əhəmiyyətə malikdir. Bu müəlliflərin Səfəvi şəhərləri haqqında verdikləri məlumatlara dövrün digər qaynaqlarında çox nadir hallarda təsadüf edirik.

Şəhərdə icra hakimiyyətinin başında bəylərbəyi, xan və sultan rütbəsi olan hakim, həmçinin məlik dururdu. İnzibati idarə bölgüsünə görə, əyalət-

lər mahallara bölünürdü. Əyalətə daxil olan mahala başçı sultan titulu ilə təyin edilirdi (4, 99-100). Xan və ya mirmiran əyalətə və onun inzibati mərkəzi olan şəhərə də başçılıq edirdi.

Şəhərlərin idarə quruluşunda darğa çox məsul vəzifə idi. Darğa əyalət hakimi tərəfindən təyin edilirdi. Polis xidmətini ona tabe olan inzibati idarə qulluqçuları ilə birlikdə darğa icra edirdi. Darğa öz müavinləri ehdas və mir-şəblə birlikdə günün 24 saatını qulluqda olurdu. Onlar gecə bazara keşik çəkir, şəhər məhəllələrini gəzir və asayişin keşiyində dururdular. O, şəhər əhalisinin var-dövlətinin təhlükəsizliyi üçün cavabdeh idi. XVII əsrin 80-ci illərində bir çox şəhər xassə olduğuna görə, birbaşa mərkəzə tabe idi. Sansonun yazdığına görə bu zaman Qəzvində xassə əmlakı olub darğa tərəfindən idarə edilirdi və buradakı darğa əslində hakim statusuna malik idi. Şəhərlərdə ümmal və ya amil adlanan divanın canişini vergi toplaması ilə məşğul olurdu (5, 144, 145; 6, 46).

Şəhər əhalisinin böyük əksəriyyətini tacirlər təşkil edirdilər. Kempfer yazır ki, şəhərlərdə tacir ittifaqının başçısı tacirlərin özləri tərəfindən seçilən məlik ət-tüccar adlanırdı. O, tacirlər arasında baş verən ixtilafları həll edirdi. Adətən belə məsələlərə öz evində baxırdı. Məlik ət-tüccar alverdəki mübahisəli məsələlər və mülki iddia haqqında qərar qəbul etməli, həmçinin toxucu və boyaqçıların işlərinə nəzarət etməli idi. Şəhər həyatı və sənətkarlıqda möhtəsib də az rol oynamırdı (5, 106). O, ərzaq mallarının qiymətini təyin edirdi. Onların üç-dörd nəfər mülazimi vardır. Həftənin birinci günü car çəkərək malların qiymətini elan edir, qiymətlərə nəzarət edir, baha satanları cəzalandırırdılar. Şəhər məhəllələrinə məhəllə başçısı-“kətxuday-i məhəllə” başçılıq edirdi. Şəhərlərdə möhtəsib sex ağsaqqalları və ticarət ittifaqları tərəfindən təqdim olunan malların qiymət siyahılarını təsdiq edir, həmçinin bazarlara nəzarət edirdilər. Əgər tacirlərdən kimsə möhtəsib tərəfindən müəyyən edilmiş qiyməti dəyişsəydi, ona «taxta-qulah» tətbiq edirdilər, başqa sözlə, başını ağacdan hazırlanmış torbaya salırdılar, şübhəsiz, bu da böyük işgəncə idi. Kempferə görə, orta əsr Səfəvi dövlətinin şəhərlərində şəriət qanunlarının tələblərinə əhali tərəfindən riayət olunmasına nəzarət və lazım olduqda müxtəlif cəzalar müəyyən etmək möhtəsibin əsas vəzifəsi idi (5, 106).

XVII əsrin ortalarında Səfəvi şəhərlərinin iqtisadi inkişafına uyğun olaraq sənətkarlıq emalatxanalarının istehsal-satış fəaliyyətini və emalatxanalarda usta-şagird münasibətlərini tənzim etmək üçün xüsusi tacir-sənətkar təşkilatları yaranırdı. Şəhərlərdə eyni sənət növündən olan sənətkarlara və sənət növünə görə müəyyən ərazidə birləşən sənətkarlar zümrəsinə “sinif”, bu siniflərin cəminə isə “əsnaf” deyilirdi (38, 131). “Tərkirət əl–mülk” də əsnaf müəyyən sosial zümrə ilə yanaşı, şəhərlərdə tacir və sənətkarların peşələr üzrə birləşib yaratdıqları təşkilat mənasında işlənmişdir (16, 29, 47, 49, 69-65). Sənətkar təşkilatlarına əsnafla yanaşı “həmkar” da deyilirdi. Əsnafların başçıları “ustabaşı”, yaxud “həmkarbaşı”

adlanırdı. Ustabaşı əsnafın özü tərəfindən daha çox ixtisaslaşdırılmış ustalar içərisindən irəli sürülürdü. Ustabaşılığa təqdim olunan ustanın yüksək ixtisaslı və peşəkar olması vacib şərt idi. Həm də onun peşəkar olması nəqib tərəfindən ciddi yoxlanılırdı. Bu vəzifəyə irəli sürülən şəxs nəqib tərəfindən kələntərə təqdim olunurdu. Kələntər isə ustabaşı vəzifəsini (ustadı) yazılı şəkildə təsdiq edirdi (7, 47-50).

Sənətkarlıq təşkilatlarının daxili həyatı ilə bilavasitə kətxuda məşğul olurdu. Kətxudalar təkcə məhəllənin və kvartalın (məhəllə) böyüyü vəzifəsini deyil, həmçinin kəndin nümayəndəsi vəzifəsini də yerinə yetirirdilər. Kətxuda formal olaraq məhəllənin sənətkar-ticarət əhli tərəfindən irəli sürülürsə də, o əslində inzibati şəxs hesab olunurdu. Ustabaşından fərqli olaraq görünür ki, onlar istehsal-satış işlərinə qarışa bilməzdilər. E.Kempferin də yazdığı kimi, əgər kətxudanı əsasən əhalinin uçotu və vergi toplanması işi maraqlandırırdısa, ustabaşı birinci növbədə əsnafdaxili qaydalar yaratmaqla, usta ilə şagird münasibətlərini qaydaya salmaqla yeni şagirdlərin qəbulu, təzəcə təhsili başa vurmuş şagirdlərə-yeni öyrənənlərə lisenziya verməki, əsnaf daxilində yeni emalatxana açmaqla və s. məşğul idi (5, 144; 2, 202).

"Təzkirət-əl mülük"ə əsasən əsnafların başçısı və məhəllə nümayəndələri daha "layiqli", "təmiz" əsnaf və məhəllə sakinlərindən seçilirdilər. Onlara sınaq müddəti verilirdi. Əgər onlar bu müddətdə öz vəzifələrinin öhdəsindən gələ bilməsəydilər, onda onları vəzifədən çıxara bilərdilər. Kətxuda və ya məhəllə nümayəndəsi əsnafların və ya məhəllə sakinlərinin gəlirindən əmək haqqı alırdılar. Nəqib tərəfindən kətxudalığa namizəd göstərilən şəxs təsdiq edildikdən sonra sonuncu dəfə təsdiq üçün kələntərə verilirdi. Bəzən əsnaf və məhəllə nümayəndəsini kələntər özü təyin edirdi. Bu da əsnafların inzibatiləşdirilməsinə, onların müstəqil fəaliyyətlərinin məhdudlaşdırlmasına gətirib çıxarırdı. Əsnafların nəqib adlanan dini başçıları vardı. Nəqib əsnaflar üzərində təkcə dini başçı deyil, həm də inzibati hakim idi. Əsnafların nümayəndəsi kətxuda da ona tabe idi. Nəqib isə öz növbəsində kələntərə tabe idi. Nəqib həmçinin, əsnaf sənətkarlarından vergilərin toplanmasını qaydaya salmaqla məşğul idi. O, əsnafda məhkəmə işlərinə baxır, onun üzvləri arasında kiçik mübahisələri həll edir, dərvişlərin, küçə icraçılarının başçılarını təyin edirdi (7, 47-49).

Göründüyü kimi, özünüidarəetmə hüquqlarının məhdudlaşdırılması əsnafların inzibatiləşdirilməsi ilə müşayiət olunurdu. Onlar şəhər hakim dairələrinin müxtəlif nümayəndələrindən, birinci növbədə kələntərdən asılı idilər. Kələntər şah tərəfindən yerli şəhər əyanlarından təyin olunur, yalnız onun özünə tabe idi. Kələntər təkcə iri və orta şəhərlərdə deyil, hətta bir neçə kiçik, iri yaşayış məntəqələrinə də təyin edilirdi. Onlar şəhər sənətkarlarının, tacirlərin və digər zümrənin şikayətlərinə baxmalı və tədbir görməli idilər. Onlar bir tədbir görə bilməyəndə divana müraciət etməli idilər. Kələntər şəhər əhalisindən vergilərin vaxtında toplanması və mükəlləfiy-

yətlərin icrası, həmçinin şahın fərmanının öz şəhəri daxilində düzgün həyata keçirilməsi üçün cavabdeh idi. Xəzinə, o sıradan gəlirin toplanması və məlum ödənişlər onların sərəncamına daxil idi (7, 44-50). Qərbi Avropa sexlərindən fərqlənən, özünüidarə hüququ nisbətən məhdud olan Səfəvi şəhərlərindəki həmkarlar daxilində baş verən bir sıra mübahisəli məsələlər çox zaman kələntərlə yanaşı darğa tərəfindən inzibati qaydada həll edilirdi. Əvvəl qeyd olunduğu kimi darğaya tabe olan və gecə qulluğu üçün cavabdeh şəxs "mirşəb" adlanırdı (5, 144). XVII əsrin 30-cu illərində Ərdəbildə 40 nəfərdən ibarət belə bir keşikçi dəstəsi vardı. Oğru tutulduqda oğurlanmış malın 1/3 hissəsini mir-şəb alırdı, qalmış 2/3 hissəsi isə divanbəyi və darğanın razılığı ilə sahibkara qaytarılırdı. Lakin oğru tutulmayanda mirşəb zərər çəkmişi mükafatlandırmalı idi (7, 48-49; 6, 104-105).

Məhkəmə işlərinə ölkənin baş ruhanisi–sədr tərəfindən təyin edilmiş qazı baxırdı. Bəzi şəhərlərdə rütbəcə qazinin vəzifəsini ondan yuxarı olan şeyx-ül-islam yerinə yetirirdi. Böyük şəhərlərdə isə məhkəmə işlərinə hər ikisi baxırdı. Şəhərlərdə sənətkar və tacir təbəqəsi üzərinə vergi qoyulması, daxili problemlərin qaydaya salınması ilə ölkə və vilayətin vəziri tərəfindən təyin edilmiş kələntər məşğul idi. Nəqib və kətxuda sənətkarlıq və ticarətin hər bir sahəsində ona kömək edirdilər (6, 41, 42; 5, 121-125).

### ƏDƏBİYYAT


1. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII вв. Баку: Элм, 1981, 238 с.
2. Aşurbəyli S. Bakı şəhərinin tarixi. Ruscadan tərcümə edəni Azər Bağırov, Bakı: Elm, 2006, 416 s.
3. İsgəndər bəy Türkman. Tarix-i aləm aray-i Abbasi. c.I., Tehran, h.1350, 607 s.
4. Петрушевский И.П. Очерки феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Л.: Наука, 1949, 379 с.
5. Engelbert Kempfer. Dər Dərbare şahənşahe İran. Tərcome-yi Keykavus Cahandari, Tehran, h. 1359, 312 s.
6. Səfərname-ye Sanson. Tərcome-yi Tağı Təfəzzüli, Tehran, h. 1346, 237 s.
7. Mirzə Səmia. Təzkirət əl-müluk. Tehran, h. 1368, 140 s.


## СОЦИАЛЬНАЯ СТРУКТУРА ГОРОДОВ СЕФЕВИДСКОГО ГОСУДАРСТВА В 80-Х ГОДАХ XVII В.


**Ш.Н.ИСМАИЛОВ**


### РЕЗЮМЕ


На основе проведенных в жизнь восстановительных и строительных работ Шах Аббасом II (1642-1666) многие города превратились в центр ремесла и торговли, произошли серьёзные изменения в общественной жизни городов. В работах Сансона, Е.Кемпфера и многих источниках того периода имеются сведения о занятости городского населения и о горожанах. Однако вопросы сословной структуры страны и городского населения затрагиваются лишь частично.

В статье на основе источников исследуются проблемы социальной структуры городов Сефевидского государства.



**Ключевые слова:** Сафеви, Тебриз, Дарга

# SOCIAL STRUCTURE OF SAFAVID'S EMPRIE IN 80S OF THE XII CENTURY

**Sh.N.ISMAILOV**

## SUMMARY

On the basis of reconstucturing policy of Shah Abbas II (1642-1666), most towns became the centers of handcrafts and sale, and there were severe changes in the public life of towns. According to the works of Sanson, E.Kempfer and other primary sources, we can get information about the employment of the town people. Yet, there is little information on the structural issues of government and the town people.

This article is dedicated to the research of the problem of social structure of the Safavid empire.

**Keywords:** Safavi, Tabriz, Darga